# İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Məsləhət və Təlim Xidmətləri

## Beynəlxalq Maliyyə Hesabatı Standartlarının tətbiqinə keçid üzrə xidmətlər

BAKI 2016

# Xidmətin həyata keçirilmə mərhələləri

1. Təşkilatda mövcud hesabatlılıq vəziyyətinin diaqnostikası və beynəlxalq maliyyə hesabatları standartlarına keçidin mahiyyətinin və əhəmiyyətinin izah edilməsi, hazırlıq işləri;

2. Beynəlxalq  maliyyə hesabatı standartlarının (BMHS) ilk dəfə və sonrakı tətbiqi qaydaları:
    1. Beynəlxalq maliyyə hesabatlarının (BMHS) ilk dəfə tətbiqi qaydaları;
    2. Beynəlxalq maliyyə hesabatlarının (BMHS) sonrakı tətbiqi qaydaları;

3. Gözlənilən nəticələr.

# 1. Diaqnostika və hazırlıq

BMHS-in tətbiqinə keçid məqsədilə ilk növbədə təşkilatdakı mövcud vəziyyət qiymətləndirilməli, görüləcək işin həcmi müəyyənləşdirilməli və planlaşdırılmalıdır. Bu mərhələdə:

1. Təşkilatda mövcud hesabatlılıq sisteminin vəziyyəti öyrəniləcək, diaqnostikası aparılacaq və qiymətləndiriləcək;
2. Maliyyə informasiyasının təşkilatdaxili qəbulu, emalı, ötürülməsi, saxlanması və hesabatların hazırlanması vəziyyəti qiymətləndiriləcək;
3. Maliyyə informasiyasının hazırlanması, qəbulu, emalı, ötürülməsi, saxlanmasına məsul şəxslər müəyyənləşdiriləcək və qiymətləndiriləcək;
4. BMHS-nin mahiyyəti təşkilatdakı formal və qeyri-formal rəhbərlərə izah olunacaq, onlarda dəyişikliyin müsbət nəticələrinə dair əminlik yaradılacaq;
5. Qərarların qəbulu zamanı BMHS-nin keyfiyyət meyarları əsasında hazırlanmış maliyyə informasiyasının oynaya biləcəyi rol, onun faydaları və əhəmiyyəti təşkilat rəhbərlərinə əsaslandırılacaq.

Bu mərhələdəki işlərin yekunu vəziyyəti qrafik metodlarla təsvir edən ilkin hesabat formasında təqdim olunur.

# 2.1. BMHS-in ilkin tətbiqi

Standartların ilkin tətbiqi onu əvvəllər tətbiq etməmiş təşkilatların İFRS-ə keçidini nəzərdə tutur. İlkin keçid üçün aşağıdakı addımlar və mərhələlərin həyata keçirilməsi nəzərdə tutulur:

1. BMHS 1 – Beynəlxalq Maliyyə Hesabatı Standartlarının ilk dəfə qəbulu standartının təhlili və tətbiqi qaydaları haqqında təşkilat rəhbərlərinin və aidiyyatı mütəxəssislərin iştirakı ilə təlim və izahat işləri;
2. Tətbiq ediləcək və seçiləcək mühasibat siyasətlərinin müzakirəsi, seçilməsi və tətbiqi qaydaları haqqında məsləhət. İşlərin planlaşdırılması, bölüşdürülməsi və görüləcək işlər haqqında təsəvvür yaradılması, konsensusun əldə edilməsi;
3. BMHS-ə keçid tarixinin müəyyənləşdirilməsi, BMHS-ə uyğun yenidən hazırlanacaq maliyyə hesabatlarının tərkibinin müəyyən edilməsi. Təşkilat daxilində BMHS-ə keçid işlərinə rəhbərlik edəcək, koordinasiya və kommunikasiya işlərini görəcək şəxsin təyini. BMHS-ə keçid planının təsdiqi (hədəflər və vaxt limitlərinin müəyyənləşdirilməsi);

# 2.1. BMHS-in ilkin tətbiqi..

4. BMHS-ə uyğun ilk maliyyə hesabatlarının hazırlanmasına dair məsləhətlər verilməsi və aşağıdakı hesabatların hazırlanmasına nəzarət edilməsi:
   - maliyyə vəziyyəti haqqında üç hesabat;
   - mənfəət və zərər və digər gəlirlər haqqında iki hesabat;
   - nağd vəsaitlərin axını haqqında iki hesabat;
   - kapitalda dəyişikliklər haqqında iki hesabat;
   - müqayisəli məlumatlar da daxil olmaqla qeydlər.
5. Keçid tarixinə BMHS-ə uyğun başlanğıc balans hesabatının hazırlanması sahəsində:
   - BMHS-nin tələblərinə uyğun olaraq aktiv və öhdəliklərin tanınması;
   - BMHS-nin tələblərinə uyğun olaraq aktiv və öhdəliklərə uyğun gəlməyən maddələrin ləğvi;
   - BMHS-nin tələblərinə uyğun olaraq aktiv və öhdəliklərin yenidən təsnifləşdirilməsi.

# 2.1. BMHS-in ilkin tətbiqi..

6. Tanınmış bütün aktiv və öhdəliklərin BMHS prinsiplərinə uyğun ölçülməsi;
7. BMHS-ə ilk keçid zamanı hesabatlarda təqdim olunmalı olan açıqlamaların müzakirəsi;
8. İlk hesabatların tərtibatı zamanı BMHS-lərin retrospektiv tətbiqindən azad olmalara dair məsələlərin müzakirəsi;
9. İlk hesabatların tərtibatı zamanı BMHS-lərin retrospektiv tətbiqindən azad olmalara dair məsələlərin müzakirəsi;
10. BMHS-nin baza ölçülmə prinsipindən azad olma hüququndan istifadəyə dair məsləhət.

# 2.2. BMHS-in sonrakı tətbiqi

Bu xidmətlər aşağıdakı mərhələlərdən ibarət olacaq:

1. Təşkilatın fəaliyyət göstərdiyi sahə, ölçü, texnologiya və bazara uyğun olaraq daha sürətli tətbiq olunacaq BMHS-lərin müəyyənləşdirilməsi;
2. BMHS-larının çərçivə qaydalarının və prinsiplərinin tətbiqinə dair məsləhətlər;
3. Maliyyə hesabatlarının təqdimatı standartının tətbiqinə dair məsləhət (IAS 1);
4. Ehtiyatlar (IAS 2) standartının tətbiqinə dair məsləhət;
5. BMHS-ə uyğun nəğd vəsaitlərin axını hesabatının hazırlanması qaydalarına dair məsləhət(IAS7);
6. Mühasibat siyasəti, mühasibat qiymətləndirmələrində dəyişikliklərin tətbiqinə dair məsləhət (IAS 8);
7. Hesabat tarixindən sonra baş verən dəyişikliklərin tətbiqinə dair məsləhət (IAS 10);

# 2.2. BMHS-in sonrakı tətbiqi..

8. BMHS-larında mənfəət vergisinin hesablanması və uçotuna dair məsləhət (IAS 12);
9. BMHS-ə uyğun əmlak, tikili və qurğuların (IAS 16), qeyri-maddi aktivlərin (IAS 38) və investisiya mülkiyyətinin (IAS 40) uçotuna dair məsləhət;
10. BMHS-də lizinqin tətbiqinə dair məsləhət (IAS 17);
11. BMHS-də işçi maraqlarının qeydə alınma qaydalarına dair məsləhət (IAS 19);
12. Hökumət qrantlarının və hökumət yardımlarının BMHS-ə uyğun qeydiyyatı qaydalarına dair məsləhət (IAS 20);
13. BMHS-ə uyğun borc faizinin kapitallaşdırılmasına (IAS 23) və satış üçün nəzərdə tutulmuş uzunmüddətli aktivlərin və dayandırılmış fəaliyyətlərin uçotuna dair dair məsləhət (IFRS 5);

# 2.2. BMHS-in sonrakı tətbiqi..

14. Konsolidasiya olunmuş və fərdi maliyyə hesabatlarının BMHS-ə uyğun hazırlanması qaydaları (IAS 27, IAS 28, IAS 31, IAS 34, IFRS 3, IFRS 10, IFRS 11);
15. Maliyyə alətlərinin BMHS-ə uyğun təqdimatı qaydalarına uyğun məsləhət (IAS 32, IAS 39, IFRS 7, IFRS 9);
16. BMHS-də aktivlərin dəyərdəndüşmə qaydalarının tətbiqinə dair məsləhət (IAS 36);
17. BMHS-də qiymətləndirilmiş ehtiyatlar, şərti aktiv və öhdəliklərin uçotu qaydalarına dair məsləhət (IAS 37);
18. Müştərilərlə müqavilələrdən gəlirlərin tanınması (IFRS 15);
19. Təşkilatın fəaliyyət xüsusiyyətinə uyğun konkret standartların tətbiqinə dair məsləhət.

# 3. Gözlənilən nəticələr

***Təşkilatın investorlarla əlaqələrinin inkişafında müsbət rol oynayacaq***

1) Təşkilat BMHS-ə əsaslanan hesabatlılıq və informasiya sistemi qurduqdan sonra maliyyə hesabatları daha dəqiq, vaxtında və ətraflı olur;
2) İnvestorlar üçün BMHS-ə əsaslanan maliyyə hesabatları daha anlaşıqlıdır;
3) BMHS-ə əsaslanan hesabatlılıq sistemi harmonizasiya və standartlaşmanı təmin etdiyindən təşkilatla əlaqə qurmağa can atan investor məlumatların təhlili üçün əlavə çətinliklə qarşılaşmır;
4) Hesabatlarda harmonizasiya təşkilatın xarici əlaqələrinin inkişafına səbəb olur və xarici investorların şirkətdə pay alınmasına olan maneələri aradan qaldırır.

*Bütün bunlar təşkilatın şəxsi kapitalının ucuzlaşmasına səbəb olaraq hissə sənədlərinin bahalaşmasına və yeni investisiyaların daha cəlb edici olmasına səbəb ola bilər!*

# 3. Gözlənilən nəticələr..

***Təşkilatda korporativ idarəetmənin tətbiqini tətikləyəcək və şəffaflığı, müqayisəliliyi, ardıcıllığı və etibarlılığı artıracaq.***

1. Şəffaflıq təmin olunur;
2. Korporativ idarəetmənin tətbiqi imkanları genişlənir;
3. Eyni əsaslarla hazırlandığına görə maliyyə hesabatlarında müqayisəlilik təmin olunur;
4. Şirkət (qrup, holdinq) daxilində vahid mühasibat dili yaranmış olur;
5. Maliyyə hesabatlarında ardıcıllıq təmin olunur.

# 3. Gözlənilən nəticələr..

***Xarici kapital bazarlarına və investisiyalara daha yaxşı çıxış təmin olunacaq!***

1. Vahid hesabat standartlarına əsaslanan maliyyə hesabatlarına malik təşkilatlar xarici kapital bazarlarına daha rahat çıxa bilirlər;
2. Hesabatların audit olunması asanlaşır;
3. Kredit reytinqi almaq imkanları formalaşır.

Bakı şəh., Yasamal rayonu, Landau küçəsi 16, AZ1073

(+994 12) 521 33 18

info@ereforms.org

www.iqtisadiislahat.org | www.ereforms.org | www.ecoreform.az/

www.facebook.com/iqtisadiislahat

www.twitter.com/iqtisadiislahat

www.youtube.com/channel/UCRqqwouYQ0a5VVfEyLJe4pw

www.linkedin.com/company/13252168/